UOT 159.9

***Gülnarə Həmzəbəyovna Əlixanova***
*psixologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*https://orcid.org/0000-0002-5241-0250*

## "MƏN" OBRAZI VƏ SOSİAL PRİNSİPLƏR

***Гюльнара Гамзабековна Алиханова***
*доктор философии по психологии*
*старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

## ОБРАЗ "Я" И СОЦИАЛЬНЫЕ ПРИНЦИПЫ

***Gulnara Hamzabayovna Alikhanova***
*doctor of philosophy in psychology*
*senior lecturer of Azerbaijan State Pedagogical University*

## IMAGE "I" AND SOCIAL PRINCIPLES

**Xülasə.** Sosiallaşma nəticəsində sosial prinsiplərin mənimsənilməsi erkən uşaqlıqdan başlanır və mahiyyətcə qocalığın sonuna kimi davam edir. Uşağın "Mən" obrazının əsas sosial prinsiplərlə əlaqəsi tənzimlənir. O, fərdin mədəniyyətə daxil olmasının bütün proseslərini: onun öyrədilməsi və tərbiyəsi, başqa insanlarla qarşılıqlı təsiri, onun cəmiyyətin dəyər və birgə qarşılıqlı fəaliyyət növlərini mənimsəməsi, müəyyən hüquq və vəzifələrin, baxışların, vərdişlərin və s. qazanılmasını əhatə edir. Nəticədə insan sosial prinsipləri mənimsəyərək tədricən bioloji varlıqdan cəmiyyətdə yaşamağa və fəaliyyət göstərməyə qabil olan sosial varlığa çevrilir. Uşağın "Mən" obrazının sosial prinsiplərlə əlaqəsinin tənzimlənməsinin əsasını ailə, tərbiyə və tədris müəssisələri, əmək kollektivləri, dostların, tanışların və qohumların əhatəsi, kütləvi informasiya vasitələri və sairə təşkil edir. Bununla yanaşı, insanların fasiləsiz sosiallaşması prosesində mədəni təcrübənin toplanılması və nəsildən-nəslə ötürülməsi baş verir.
***Açar sözlər:*** *"Mən"obrazı, özünütənzimləmə, sosiallaşma, əxlaq, seçim situasiyaları, fəaliyyət, ünsiyyət subyekti*

**Резюме.** В результате социализации усвоение социальных принципов начинается в раннем детстве и в основном продолжается до конца старости. Регулируется связь детского образа «Я» с основными социальными принципами. Она охватывает все процессы вхождения человека в культуру: его образование и воспитание, его взаимодействие с другими людьми, усвоение им ценностей общества и виды совместного взаимодействия, приобретение определенных прав и обязанностей, взглядов, привычек и т.д. В результате человек постепенно превращается из существа биологического в существо социальное, способное жить и функционировать в обществе, усваивая социальные принципы. Семья, образование и воспитательные учреждения, трудовые коллективы, круг друзей, знакомых и родственников, средства массовой информации и т. д. составляют основу регуляции детского образа «Я» социальными принципами. При этом в процессе непрерывной социализации людей накапливается и передается из поколения в поколение культурный опыт.
***Ключевые слова:*** *Образ «Я», саморегуляция, социализация, нравственность, ситуации выбора, действие, субъект общения*

**Summary.** As a result of socialization, the assimilation of social principles begins in early childhood and essentially continues until the end of old age. The connection of the child's "I" image with basic social principles is regulated. It covers all the processes of an individual's entry into culture: his education and upbringing, his interaction with other people, his assimilation of society's values and types of joint

interaction, the acquisition of certain rights and duties, views, habits, etc. As a result, a person gradually transforms from a biological being into a social being capable of living and functioning in society by adopting social principles. Family, education and educational institutions, labor collectives, circle of friends, acquaintances and relatives, mass media and so on form the basis of regulation of child's image of "I" with social principles. At the same time, in the process of continuous socialization of people, cultural experience is collected and transmitted from generation to generation.

***Key words:*** *"I" image, self-regulation, socialization, morality, choice situations, action, subject of communication*

Uşağın "Mən" obrazının əsas sosial prinsiplərlə əlaqəsini nəzərdən keçirək. Bildiyimiz kimi, şəxsiyyətin psixi inkişafı əsasən onu sosial təcrübəyə, o cümlədən əxlaqi normalar sferasına daxil etməklə müəyyən edilir. Əxlaqın əsas funksiyası cəmiyyətdə qəbul edilmiş dəyərlər sisteminə uyğun olaraq sosial davranışın və insanlar arasında münasibətlərin tənzimlənməsidir. Bu baxımdan insan özünə uyğun tələblər qoyur, bu prosesdə özünüqiymətləndirmə baş verir, uyğunsuzluq vəziyyətlərində isə özünə qarşı müəyyən sanksiyalar tətbiq edir.

Beləliklə, bu prosesdə sosialyönlü özünütənzimləmə baş verir: sosial normaları pozan mənfi özünüqiymətləndirmə daxili sanksiyalar rolunu oynayır (başqasının mənfi qiymətləndirilməsinin xarici sanksiyaların formalarından biri olduğu kimi); eyni zamanda müsbət özünüqiymətləndirmə özünüaktuallaşdırma alətinə çevrilir (1, s. 126).

Potensial "Mən"- obraz realizədə "mən necə ola bilərdim?" (subyektiv qəbul edilən) şəxsi, o cümlədən neqativ keyfiyyətlərin təsir göstərmədiyi halda, real "Mən" - obrazı isə "Mən özümü mövcud anda nə cür görürəm?" ifadəsində özünü təzahür etdirir. Qiymətləndirilmə zamanı yalnız mövcud ana müvafiq olan deyil, eyni zamanda, normaların pozulması zamanı "Mən"in nə cür ola biləcəyi də qiymətləndirilir. Bu proses özünüdərkin mərhələli şəkildə mənimsənilməsidir, onun strukturunda real "Mən" obrazı və potensial "Mən" obrazı fərqlənir.

Mövzu ilə əlaqədar aparılmış tədqiqatların nəticələrinə görə, əxlaqi normaların və "Mən" obrazının əlaqəsini ifadə edən əsas müddəalar aşağıdakılardır:

1. Əxlaqi özünütənzimləmənin əsas psixoloji amili özünüdərkdir.

2. Əxlaqi davranış "Mən" inteqral obrazının "Mən-real" və "Mən-potensial"da təbəqələşməsi ilə səciyyələnən özünüdərk forması ilə müəyyən edilir.

3. İnsanı sosial normalara əməl etməyə sövq edən motiv onda özü haqqında ilkin müsbət obrazını saxlamaq istəyidir.

4. Müsbət "Mən" obrazının məzmununa əxlaqi norma və prinsiplərə riayət etmək kimi bir xüsusiyyət daxildir.

"Mən" obraz və sosial prinsiplərin öyrənilməsi ilə əlaqədar S.Q. Yakobson və S.İ. Moreva İ.S. Kon, S.N. Karpova, E.V. Subbotski, L.Q. Lısyuk, Ə.K. Zəkuyev, Ə.S. Bayramov, Ə.Ə. Əlizadə və başqaları mühüm tədqiqatlar aparmışlar. Nəzəri ədəbiyyatın təhlili göstərir ki, əsas diqqət uşaqlarda "Mən" obrazının düzgün formalaşmasına və sosial prinsiplərin vaxtında mənimsənilməsinə yönəldilməlidir.

Uşaqda məktəbəqədər yaşın sonunda "Mən" obrazı vasitəsilə ifadə olunan əxlaqi davranışın özünütənzimi təzahür edir, yəni "Mən" obrazının "Mən" – real və "mən" – potensial obrazlara təbəqələşməsi baş verir. Artıq beş yaşlı uşaqlar əxlaqi seçim situasiyaları ilə əlaqədar olaraq öz davranışlarını idarə etmək qabiliyyətinə malik olurlar (3, s.78). Beş yaşından sonra insan münasibətlərinin norma və qaydalarına, davranışlarına daha həvəslə maraq göstərirlər, S.N. Karpova və L.Q. Lısyukun, E.V. Subbotskinin tədqiqatlarında öz əksini tapmış "əxlaqi seçim normalarına və vəziyyətlərinə" kifayət qədər şüurlu şəkildə əməl edirlər. Beş yaşlı uşaqlar öz oyunlarında süjet qurmaqda yaradıcılıq nümayiş etdirirlər. Özlərini və hərəkətlərini təxəyyüllərində canlandırdıqları şəraitdə təsəvvür edirlər. Bununla da uşaqlar özləri haqqında obyektiv xüsusiyyətlərdən son dərəcə uzaq olan, eyni zamanda mümkün harmoniya və real vəziyyətin özünüqavrayışını uyğunlaşdırmaq, kompensasiya etmək məqsədilə təsəvvür yaradırlar.

S.Q. Yakobson və S.İ. Moreva öz tədqiqatlarında uşağın əxlaqi davranışı ilə onun əxlaqi özünüdərki arasındakı əlaqəni öyrənməyə cəhd etmişlər. Aparılmış tədqiqat prosesində beş-altı yaşlı uşaqlar: normalara sabit riayət

edənlər, qeyri-sabit riayət edənlər və əxlaqi davranış normalarını sistematik şəkildə pozanlar müxtəlif əxlaqi davranış formaları ilə müşahidə edilmişlər. Təcrübə zamanı uşaqların oyuncaqların bölüşdürülməsində ədalətlilik dərəcəsi təhlil edilmişdir. Məlum olmuşdur ki, bütün uşaqlarda ilkin hissiyyat çox yüksəkdir, onlar normalara riayət edənləri çox yüksək, normaları pozanları isə çox aşağı qiymətləndirirlər. Bununla belə, əxlaqi davranış normalarına ardıcıl riayət edən uşaqlar, davranış normalarının pozulduğunu hiss etdikdə, onların özlərinə hörmətləri kəskin şəkildə azalır. Bu isə onların öz mənfi davranışlarına olan yüksək tənqidi münasibəti təzahür etdirir (4, s.211).

Əxlaq normalarına qeyri-sabit riayət edən uşaqlar, hətta normaya əməl edərək, onun mümkün pozulmasına yumşaq yanaşırlar. Eyni zamanda, "qeyri-sabitlər" normanın real pozulmasını xəyallarındakından daha yüksək qiymətləndirirlər. Normaları mütəmadi şəkildə pozan uşaqlar, özlərini normaya riayət edən həmyaşıdları ilə eyni olaraq yüksək qiymətləndirirlər. Normalar onlar tərəfindən kifayət qədər yüksək qiymətləndirilsə də, həqiqətdə real pozuntudan əhəmiyyətli dərəcədə aşağı olur. Bu, həm normanın pozulmasına tənqidi münasibətin olmadığını, həm də bu uşaqlarda bu cür davranışı əsaslandırmaq üçün açıq bir tendensiyanın, habelə özünün və digər insanların davranışlarını qiymətləndirmək üçün tamamilə fərqli meyarların mövcudluğundan xəbər verir.

Tədqiqat prosesində uşaqların əxlaqi normaların pozuntusu zamanı özünüqiymətləndirmənin xüsusiyyətləri bu cür müəyyənləşdirilmişdir:

1. Fərqli əxlaqi davranışa malik uşaqlar real və xəyali uyğunluq normalarının pozulması ilə bağlı özünüqiymətləndirmələrinin xarakterinə görə fərqlənirlər.

2. Həqiqi və xəyali uyğunluq - normaların pozulması ilə bağlı özünüqiymətləndirmələrin nisbəti uşaqların davranışı ilə korrellyasiya edilir.

3. İmicinin dəyişilməsi uşağın həm davranışını, həm də özünüqiymətləndirməsini dəyişir.

4. "Mən" realın tərkib hissəsi uşaq tərəfindən təsdiqlənmiş müəyyən normaya riayət edilməsi və onun pozulduğu "Mən" real və "Mən" potensialını ehtiva edən bir quruluşa sahib olduqda, "Mən" obrazı uşağın mənəvi davranışını müəyyən edir. Bu normanın pozulması isə neqativ "Mən" potensialın məzmununa daxildir.

Uşaqda erkən yaşda ətrafı dərketmə ilə paralel olaraq özünüdərketmə də davamlı proses alır. O, bu prosesdə mərkəzi və tənzimedici funksiyanı yerinə yetirir (5, s. 130)

Bütün yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, erkən uşaqlıq dövründə ətraf aləmi dərk etməklə paralel olaraq uşaq özünü dərk etməyə davam edir. Bu prosesdə özünüdərk mərkəzi və tənzimləyici funksiyanı yerinə yetirir. Uşaq özünün şəxsi normaları ilə tənzimlənən öz istək və hərəkətlərini dərk edir (böyüklər tərəfindən ona ötürülən əxlaqi tələbləri və davranış qaydalarını dərk etməsinə uyğun olaraq). Uşaq özünün şəxsi keyfiyyətlərinin və hərəkətlərinin başqalarının müəyyən gözləntilərinə və ya tələblərinə uyğunluğunu müəyyən dərəcədə dərk edərək özünü qiymətləndirə bilir. Uşağın "Mən" anlayışı onun başqaları ilə, məsələn, onun qohumları və həmyaşıdları ilə qarşılıqlı əlaqəsi nəticəsində formalaşmağa davam edir.

Uşaq sosial qavrayışlı olduqca onun koqnitiv və perseptiv qabiliyyətləri inkişaf edir, onun "Mən" – konsepsiyası daha çox diferensiasiya olunur və mürəkkəbləşir. Nəticə etibarilə, uşağın "Mən" obrazının məzmunu əhəmiyyətli dərəcədə sosiallaşma prosesinin məhsuludur (2, s. 107).

Məktəbəqədər yaşlı uşağın "mən" – konsepsiyasının inkişafında uşağın özünü ilkin dərk etməsi mürəkkəb və nisbətən sabit sistemə çevrilir: uşaq öz bədəninin xüsusiyyətlərindən, fiziki imkanlarından xəbərdar olur, özünü müəyyən cinslə identifikasiya edir, özünü sosial qrupun üzvü kimi qəbul edir. Uşağın məktəbəqədər dövrdə inkişaf edən şəxsiyyət yenitörəmələri, onda empatiya və özünüidarəetmənin erkən təzahürləridir ki, bu da öz növbəsində yaş inkişafının bu mərhələsində əxlaqi-mənəvi tənzimləməni və uşağın davranışını əhəmiyyətli dərəcədə müəyyənləşdirir.

Uşağa böyük rollarının yerinə yetirilməsinin öyrədilməsi prosesini C. Mid üç mərhələyə ayırırdı: hazırlıq, oyun, rolun yerinə yetirilməsi (icra edilməsi). Hazırlıq mərhələsində (1-dən 3 yaşa kimi) uşaq başa düşmədən böyüklərin davranışını təqlid edir. İkinci mərhələdə (3-4 yaşda) uşaqlar təsvir etdiklərinin davranışını başa düşməyə başlayırlar, ancaq rolun yerinə yetirilməsi

hələ sabit deyildir. Son mərhələdə (4-5 və daha yuxarı yaşda) rol davranışı toplanmış və müəyyən məqsədə yönəlmiş olur, başqalarının rollarını hiss etmək qabiliyyəti üzə çıxır (6, s.15). Bu prosesin gedişində fərd başqa rollara daxil olmanın bütün mərhələlərini ardıcıl keçir. Öz şəxsi davranışını başqa fərdlərlə qarşılıqlı əlaqədə görmək və başqa rolların dərk edilməsi vasitəsilə öz üzərində onların reaksiyasını, həmçinin başqa insanların hiss və sərvətlərini duymaq qabiliyyətini inkişaf etdirir, şəxsiyyətin şüurunda "ümumiləşmiş başqası" formalaşır. "Ümumiləşmiş başqası"nın rolunu təkrar və qəbul edərək, fərd tədricən öz" Mən"inin obrazını formalaşdırır və sosial prinsipləri mənimsəyir.

**Problemin aktuallığı**. “Mən” obrazın formalaşması və sosial prinsiplərin mənimsənilməsinin psixoloji mahiyyətinin əsas təzahürlərini müəyyənləşdirmək, müasir psixologiyanın elmi-nəzəri tələbləri səviyyəsində onların təhlilini verməklə bağlıdır.

**Problemin elmi yeniliyi.** “Mən” obraz və sosial prinsiplərə dair psixoloji fikir və ideyaların psixoloji mahiyyətinin izahı, özünüdərk, özünüqiymətləndirmə kimi fikir və ideyaları müəyyənləşdirməkdən ibarətdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, pedaqoqlar, psixoloqlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilər.

**Ədəbiyyat:**


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. -Bakı: Qamma–servs, -2003.
2. Əliyev R.İ. Tərbiyə psixologiyası. -Bakı: Nurlan, -2006.
3. Əlixanova G.H. Məktəbəqədər yaşlı uşaqlarda “mən” obrazının formalaş-masında ailənin rolu. Monoqrafiya. -Bakı: ADPU-nun nəşriyyatı, -2021/
4. Андреева, Г.М. Социальная психология. -М.: Аспект Пресс, -2012.
5. Агапов В. С. Сущностная характеристика Я-концепции. -М.: МГСА, -2002.
6. Захарова А. В. Уровень притязаний как показатель самооценки // Новые исследования в психологии. -М., -1989. Вып. 1.с.26.


**E-mail:** gulnare.alixanova@mail.ru

**Rəyçilər:** *psixol. elm.dok., prof.* **Q.N. Qəhrəmanova**
*ped..ü.fəls.dok., dos.* **Q.V. Rəhimova**
**Redaksiyaya daxil olub:**30.08.2022.